# Tranzit yükdaşıma prosesinin axını

| Mərhələ / İştirakçı | 1. İlkin məlumat mübadiləsi | 2. Gəmi gəlişi və yan alması | 3. Sərhəd və gömrük nəzarəti | 4. Yükləmə / Boşaltma | 5. Sənədləşmə | 6. Daxili tranzit | 7. Ölkədən çıxış |
|---|---|---|---|---|---|---|---|
| ASCO / gəmi sahibi | Yük/gəmi manifestini hazırlayıb BBDTL-ə göndərir | Çatma vaxtını bildirir, sənədləri toplayıb Komissiyaya təqdim edir | - | Gəmi içində ballast və bərkitmə əməliyyatları | Bilet satışı və kassa əməliyyatları (Ro-Ro üçün) | - | - |
| BBDTL | Məlumatı DGK, DSX, ADY, Qərargaha ötürür | İcazə və körpü təyinatı verir | - | Yükləmə/boşaltma əməliyyatları, terminal emalı | Liman ödənişləri və kassa əməliyyatları | Nəqliyyat vasitələrinin limandan buraxılması | - |
| DGK | Qabaqlayıcı hazırlıq görür | - | Gömrük yoxlaması və rəsmiləşdirilməsi | Yük və nəqliyyat vasitələrinin yoxlanması | Gömrük rəsmiləşdirməsinin yekun təsdiqi | Tranzit müşayiəti və nəzarəti | Çıxış gömrük yoxlaması və rəsmiləşdirməsi |
| DSX | Qabaqlayıcı hazırlıq görür | - | Sərhəd yoxlaması və müşayiət | Yük və nəqliyyat vasitələrinin yoxlanması | - | Tranzit müşayiəti və nəzarəti | Sərhəd nəzarəti və buraxılış |
| ADY | Qabaqlayıcı hazırlıq görür | - | - | Vaqonların verilməsi, çəkilməsi, yüklənməsi/ boşaldılması | Dəmir yolu qaimələri və sənədləşməsi | Vaqonların hərəkəti, qatarların tərtibi, texniki baxış | - |
| Yük sahibi / ekspeditor | Manifest, invoys, qaimə, digər müşayiətedici sənədləri təqdim edir; məlumatların düzgünlüyünə cavabdehdir | Xüsusi/təhlükəli/tez xarab olan yüklər olduqda əvvəlcədən xəbərdarlıq və əlavə icazələri təmin etməlidir | Gömrük bəyannaməsini, sertifikatları, icazə sənədlərini təqdim edir; sənədlərin düzgünlüyünə cavabdehdir | Daşıma vasitələrinin vaxtında limanda olmasını təmin edir, yükləmə planı və nəqliyyat koordinasiyasını aparır | Liman və daşıma ödənişlərini edir; ASCO və ADY sənədlərini alır; ödənişlərin düzgün aparılmasına nəzarət edir | Daşıyıcı ilə koordinasiya aparır, yükün hərəkətini izləyir, gecikmələr və risklər barədə operativ məlumatlanır | Son sənədlərin tamlığını və düzgünlüyünü təmin edir; buraxılış prosesini müşahidə edir və təsdiq sənədlərini alır |

## Əsas anlayışlar:

**Terminal** – "Dəniz Limanları haqqında" Qanunun 3.1.7-ci maddəsinə əsasən müvafiq xidmətləri göstərən Ro-Ro, Bərə və Ümumi Yüklər Terminalları

**Yük (karqo) manifesti** – gəmi ilə daşınan bütün malların siyahısını əks etdirən sənəd

**Yük sahibi** – Yükün sahibi və ya mal göndərən/alan şəxs

**Ekspeditor** – Yük sahibinin nümayəndəsi və ya logistika şirkəti

**BBDTL** – "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC

**ASCO** – "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC

**DGK** – Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi

**DSX** – Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti

**ADY** – "Azərbaycan Dəmir Yolları" QSC

**Komissiya** – Azərbaycan Respublikasının sərhəd mühafizə və gömrük orqanları nümayəndələrindən ibarət qrup

**Əməliyyat Qərargahı (Qərargah)** – BBDTL ərazisində aparılan prosedurların asanlaşdırılması, şəffaflaşdırılması və elektronlaşdırılması, habelə aparılan tranzit əməliyyatlarının birgə planlaşdırılması və vahid dispetçer idarəedilməsi proseslərinin təkmilləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurasının ("Koordinasiya Şurası") çərçivəsində yaradılmış, Koordinasiya Şurasının Katibliyinin idarəçiliyi altında olan ("Katiblik"), Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin (RİNN), Katibliyin, DGK, DSX, ADY, ASCO və BBDTL-in nümayəndələrindən ibarət struktur.

## *Əlaqə:*

*Tranzit yükdaşıma prosedurlarına aid bütün suallar ilə bağlı Azərbaycan Respublikasının Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurasına müraciət edə bilərsiniz.*

***Ünvan:*** *Zərifə Əliyeva 77, Bakı, AZ1000, Azərbaycan*

***Telefon:*** *+99412 598 58 58 (IP 345, 289)*

***Elektron poçt:*** *office@transit.gov.az; secretary@transit.gov.az*

***Vebsayt:*** *transit.gov.az*